# BAKI ALİ NEFT MƏKTƏBİNİN

# İNTEQRASİYA EDİLMİŞ İDARƏETMƏ SİSTEMLƏRİ ÜZRƏ

# SİYASƏTİ

**Bakı Ali Neft Məktəbinin** ( BANM ) əsas missiyası Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq Beynəlxalq Standartların tələbləri səviyyəsində tədris prosesini həyata keçirməkdir.

Biz yüksək bilik və bacarığa malik olan etibarlı işçi heyətinin öz potensialını sərf etmələri üçün bütün şəraiti təmin edəcəyik.

Əməkdaşlarımızın peşəkarlıq səviyyəsinin artırılması üçün lazımi tədbirləri həyata keçirəcəyik.

Fəaliyyətimizdə sağlamlıq, əməyin mühafizəsi və ətraf mühitin mühafizəsinin təmin edilməsi ilə yüksək keyfiyyət göstəricilərinə nail olmaq istiqamətində bütün tədbirləri görəcəyik.

Fəaliyyətimizdə mövcud bütün riskləri, ekoloji faktorları müəyyən edib müvafiq tədbirlər vasitəsilə risklərimizi daima nəzarətdə saxlayacağıq.

Tədrisi müasir texnoloji imkanlara malik auditoriyalarda həyata keçirəcəyik.

Tələbələrin tədris prosesindən məmnunluğunu əldə etmək üçün bütün imkanlardan istifadə edəcəyik.

Davamlı inkişafı təmin etmək məqsədi ilə lazımi tədbirlər görəcəyik.

Tələbələrin peşəkar kadr kimi formalaşmaları üçün SOCAR-ın struktur bölmələrində və beynəlxalq şirkətlərdə istehsalat təcrübəsi keçmələrini, eləcə də işlə təmin olunmalarını prioritet məsələ kimi davamlı olaraq göz önündə tutacağıq.

BANM-in fəaliyyətində maraqlı olan bütün tərəflərin tələblərini yerinə yetirərkən açıq, şəffaf, güvənli olacağımızı bəyan edirik. Maraqlı tərəflərdən qəbul etdiyimiz hər bir məlumatı davamlı inkişafımız üçün mükafat hesab etməklə obyektiv, ədalətli, diqqətli, konfidensiallığı qorumaqla araşdıracaq və həll edəcəyik. Müştəri məmnuniyyətini əldə edərkən hər hansı bir məmnuniyyətsizliyə yol açan halların təkrarlanmaması üçün lazımi düzəldici və önləyici fəaliyyətləri həyata keçirəcək, tədris proseslərimizi maraqlı tərəflərin ehtiyac və gözləntilərini qarşılayacaq şəkildə davamlı olaraq inkişaf etdirəcəyik.

Yuxarıda qeyd olunanlara nail olmaq üçün Azərbaycan Respublikasının təhsil haqqında olan mövcud qanunvericiliyini, təhsil standartlarını, beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərini, həmçinin ISO 9001 “keyfiyyət idarəetmə sistemi”, ISO 14001 “ekologiya idarəetmə sistemi”, OHSAS 18001 “əməyin mühafizəsi və təhlükəsizlik texnikası idarəetmə sistemi”, ISO 10002 “müştəri məmnuniyyəti - şikayətlərin idarə edilməsi üzrə rəhbər göstərişlər” standartlarının tələblərini rəhbər tutacağıq.

**Bakı Ali Neft Məktəbinin rektoru**

**Elmar Qasımov**

(imza)

**İS / PRF / 01 / 001**
**Nəşr №: 02**
**Nəşr tarixi: 01.03.2017**
**Rev. tarixi: 00**
**Rev. №: 00**